# Qəbələdə əhalinin sınaq siyahıyaalınması davam edir

Qəbələdə əhalinin sınaq siyahıyaalınmasıdağam edir.

"2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli Qərarına uyğun olaraq əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi üçün Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınmasına başlanılıb.

Bu il oktyabrın 1-10-da aparılacaq siyahıyaalınma 2019-cu ildə keçiriləcək respublika siyahıyaalınması üçün hazırlıq xarakteri daşıyır və sınaq zamanı əldə edilən təcrübədən əsas siyahıyaalınmanın daha yüksək səviyyədə təşkili üçün istifadə olunacaq, eyni zamanda, aşkar ediləcək nöqsan və çatışmazlıqların gələcəkdə baş verməməsi üçün müvafiq qabaqlayıcı tədbirlər görüləcək.

Oktyabrın 1-də Qəbələ Rayon İcra Hakimiyyətində əhalinin siyahıyaalınmasına yardım komissiyasının üzvləri, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə görüş keçirilib. Görüşdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq işlərinin gedişi haqqında ətraflı məlumat verib.

Bildirib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli Qərarına uyğun olaraq siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında (MR) Naxçıvan MR Ali Məclisi Sədrinin birinci müavininin, ölkənin digər regionları üzrə isə şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarının müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılıb. Dövlət Statistika Komitəsi tərəfindən siyahıyaalma ilə bağlı təşkilati işləri, siyahıyaalma materiallarının hazırlanması və çapı, kadr təminatı, kütləvi izahat işlərinin təşkili, texniki təminat məsələlərini, siyahıyaalmanın keçirilməsi və sənədlərin qəbulu, siyahıyaalma məlumatlarının işlənilməsi, yekunlarının dərc edilməsi və yayılması, siyahıyaalma materiallarının arxivləşdirilməsi və beynəlxalq əməkdaşlıq istiqamətləri ilə bağlı görüləcək işləri özündə əks etdirən "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planı" hazırlanıb və 2017-ci il 17 yanvar tarixli sərəncamla təsdiq edilib.







Təqvim planında nəzərdə tutulmuş tədbirlərin uğurla icra olunduğunu qeyd edən Tahir Budaqov deyib ki, komitə tərəfindən sınaq siyahıyaalınmasının keçirilməsi üçün bütün zəruri metodoloji və digər materiallar, o cümlədən siyahıyaalma və sorğu vərəqələri, təşkilati plan və ona dair məlumat formaları, onların doldurulmasına dair göstərişlər hazırlanaraq təsdiq edilib, zəruri sayda çap edilirərək aidiyyəti üzrə çatdırılıb.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Nazirlər Kabinetinin sözügedən qərarına uyğun olaraq əhalinin sınaq siyahıyaalınması çərçivəsində Qəbələ rayonunda həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib.

Görüşdə Qəbələ Rayon Statistika İdarəsinin rəisi Ayaz İsgəndərovun məruzəsi dinlənilib.

Qeyd olunub ki, sınaq siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədilə Qəbələ Rayon İcra Hakimiyyətində yaradılan əhalinin siyahıyaalınmasına yardım komissiyası gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Sınaq siyahıyaalmaya hazırlıqla bağlı rayon üzrə 60 (1 şəhər, 3 qəsəbə, 56 kənd) inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən 1-şəhər nömrəli forma, 2-kənd nömrəli forma və ona əlavə üzrə məlumatlar doldurularaq Qəbələ Rayon Statistika İdarəsinə təhvil verilib, sxematik plan və xəritələr əsasında yaşayış məntəqələrinin ərazilərinin siyahıyaalma, təlimatçı və sayıcı məntəqələri üzrə bölgüsü aparılıb. Rayon üzrə yaradılmış 8 siyahıyaalma, 70 təlimatçı və 359 sayıcı məntəqəsi üzrə siyahıyaalınmada iştirak edəcək 445 nəfərlə mülki-hüquqi müqavilələr bağlanıb, siyahıyaalma məntəqələri üzrə təlimatlandırma planına uyğun olaraq siyahıyaalma məntəqələrinin müdirləri, onların müavinləri, təlimatçı-nəzarətçilər və sayıcılar üçün təlimlər keçirilib, onlara siyahıyaalmanın məqsəd və vəzifələri, siyahıyaalmanın keçirilməsi və siyahıyaalma sənədlərinin tərtib edilməsi qaydaları ətraflı izah olunub.

Siyahıyaalma ilə bağlı Dövlət Statistika Komitəsi və Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən rayon əhalisi arasında geniş izahat və maarifləndirmə işləri həyata keçirilib, bu məqsədlə ictimaiyyət nümayəndələri ilə görüşlər təşkil edilib, yerli kütləvi informasiya vasitələrində müsahibələr və mətbu materiallar yayımlanıb.

Qeyd edək ki, tətbiq olunacaq siyahıyaalma vərəqi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərinə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcəkdir. Sorğu vərəqində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli (etnik) mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və sair mühüm göstəricilər üzrə suallar öz əksini tapıb.

Görüşdə tədbir iştirakçılarını və jurnalistləri maraqlandıran suallar da cavablandırılıb.

**"Qəbələ"**
**İlkin VƏLİZADƏ (foto).**

# Azıxantropun tapılmasının 50 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans işini Qəbələdə davam etdirir

Qəbələ Arxeoloji Mərkəzində Azərbaycanda erkən hominid Azıxantropun tapılmasının 50 illiyinə həsr olunmuş "Azərbaycanda Azıx mağarası və miqrasiya axınları" mövzusunda beynəlxalq elmi konfrans işini davam etdirir.



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutundan AZƏRTAC-a bildirilib ki, konfrans iştirakçıları əvvəlcə Qəbələ Arxeoloji Mərkəzinin foyesində Azərbaycanın və bölgənin tarixinin müxtəlif dövrlərinə aid nadir maddi mədəniyyət nümunələri ilə tanış olublar. Daha sonra beynəlxalq konfransın təşkilatçılarından biri olan SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının nümayəndəsi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru İradə Nəcəfova Qəbələ Arxeoloji Mərkəzinin yaranması və fəaliyyəti barədə məlumat verib.

Sonra Qəbələdə aparılan arxeoloji tədqiqatlarla bağlı sənədli film nümayiş olunub.

Proqram çərçivəsində paleolit dövrü arxeologiyası üzrə Azərbaycan alimləri ilə yanaşı, İngiltərə, Rusiya, Gürcüstan və Ukraynadan olan mütəxəssislər 1968-ci ildə Azərbaycanın Azıx mağarasındakı paleolit dövrü məskəninin tədqiqatları zamanı görkəmli arxeoloq Məmmədəli Hüseynov tərəfindən Azıxantropun kəşf edilməsinin tarixi və dünya elmi üçün mühüm əhəmiyyəti, Avrasiyanın paleolit dövrü abidələrində aparılmış tədqiqatlara həsr olunmuş mövzular üzrə elmi məruzələrlə çıxış ediblər.

Konfransın işində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisə Rəhimova, Azərbaycan Tarix Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, AMEA İctimai Elmlər bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Ruhəngiz Heydərova iştirak ediblər.

**İlkin Vəlizadə (foto).**